# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

# Ə M R

№ 62

Bakı şəhəri "9" iyul 2018 il

**"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Tekfen İnşaat və Təsisat şirkəti arasında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlərin icrasının təmin edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə ölkənin elektrik enerjisi istehsalı portfelinin şaxələndirilməsi nəzərdə tutulmuşdur. Həmçinin, Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən külək, günəş, su elektrik stansiyalarının tikilməsi ilə bağlı tapşırıq verilmişdir.

Bununla əlaqədar, Strateji Yol Xəritəsinin Tədbirlər Planının və verilən tapşırığın icrasının təmin edilməsinə xarici şirkətlərin cəlb olunması məqsədi ilə Energetika Nazirliyi tərəfindən bərpa olunan enerji mənbələri qurğularının quraşdırılması və istismarı sahəsində geniş təcrübəyə malik beynəlxalq şirkətlərlərlə əməkdaşlıq istiqamətində danışıqlar aparılır. Belə şirkətlərdən biri olan Tekfen İnşaat və Təsisat şirkəti ilə aparılmış danışıqlar nəticəsində cari ilin 28 may tarixində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır.

"Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Tekfen İnşaat və Təsisat şirkəti arasında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlərin icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun sədri :**

Zaur Məmmədov - Azərbaycan Respublikası Energetika Nazirliyinin

Aparatının rəhbəri;

**İşçi Qrupunun üzvləri:**

| | |
|---|---|
| Rauf Rzayev | - Azərbaycan Respublikası energetika nazirinin katiblik və idarəetmə işləri üzrə köməkçisi; |
| Ələsgər Həsənov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi və ekologiya şöbəsinin müdiri vəzifəsini icra edən; |
| Rauf Qurbanov | - Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin müdiri; |
| Asəf Rzayev | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Energetika şöbəsinin müdir müavini |
| Nərgiz Bağırlı | - Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin böyük məsləhətçisi; |
| Nurəngiz Fərəcullayeva | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi və ekologiya şöbəsinin aparıcı məsləhətçisi; |
| Aygün Əliyeva | - Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquq şöbəsinin böyük məsləhətçisi; |
| Cabir Yusifov | - Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin İnvestisiyaların və layihələrin idarə olunması şöbəsinin müdiri; |
| Sahib Xəlilov | - Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Alternativ və bərpa olunan enerji mənbələri və ətraf mühitin qiymətləndirilməsi şöbəsinin müdiri; |
| Vüsal Qəmbərov | - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin texniki direktorunun müavini; |
| Anar Vəliyev | - "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin Xarici iqtisadi əlaqələr şöbəsinin rəis müavini; |

2. İşçi Qrupuna tapşırılsın:

2.1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Tekfen İnşaat və Təsisat şirkəti arasında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlərin icrasını təmin etsin;

2.2. Anlaşma Memorandumundan irəli gələn məsələlərin icrası ilə bağlı konkret təkliflər və görülən işlər haqqında rübdə bir dəfə hesabat hazırlayıb Azərbaycan Respublikasının energetika nazirinə təqdim etsin.

5. Ümumi şöbə (E.Rzayeva) bu əmrin surətinin nazirliyin aparatının aidiyyəti şöbələrinə və bu əmrdə adıçəkilən qurumlara çatdırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** *Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Türkiyə Respublikasının Tekfen İnşaat və Təsisat şirkəti arasında Anlaşma Memorandumu.*

**Nazir** **Pərviz Şahbazov**